FİKİR ELƏMƏ

Emin Sabitoğlu bəstələmişdir

Sən fikir eləmə, gözəldir həyat,
nə qədər mən sağam, fikir eləmə.
Bu gün yanındayam, sabah hardasa,
demə mən uzağam, fikir eləmə.

Sən fikir eləmə, yeri qar alsa,
göyü bulud örtüb dumanlar alsa.
Mən odam-ocağam, fikir eləmə,
yenə yanacağam fikir eləmə.

Sən fikir eləmə heç vaxt dünyada,
mən getsəm, sən qalsan... ayağın altda
onda da torpağam, fikir eləmə,
orda da dayağam, fikir eləmə.

1978

TƏLƏSMƏ

Ramiz Mirişli bəstələmişdir

Dedim mən, sevirəm, dedi sevginən,
dedim qoşa gəzək, dedi tələsmə.
Dedim bağ içidi, dedi seyr elə,
dedim bir gül üzək, dedi tələsmə.

Dedim bir vədə ver, xəyala varma,
dedi zəhmət çəkib özünü yorma.
Dedim, qadan alım, dedi yalvarma,
dedim onda küsək, dedi tələsmə.

Dedim mən aşiqəm al yanağına,
dedi bülbül qonar gül budağına.
Dedim üzük taxım qoy barmağına,
əhdi-peyman kəsək, dedi tələsmə.

1958

QAL GÖRÜM

Ramiz Mirişli bəstələmişdir

Duman gələr, çən düşər,
dağlar məndən gen düşər.
Erkən saça dən düşər,
gülə-gülə gəl görüm.

Qara gözlər, ağ əllər,
şahid olsun bu ellər.
Oxşa məni bir qədər, –
sığal görüm, əl görüm.

Yaşıl çəmən, buz bulaq,
dünya olsun, biz olaq.
Gecə uzun, mən oyaq,
susma, susma gəl görüm.

Yana-yana od oldum,
öz-özümə yad oldum.
Gəldin, gördüm şad oldum,
getmə daha, qal görüm.

1980

SƏN BAĞIŞLADIN

Emin Sabitoğlu bəstələmişdir

Mənə üfüq boyda geniş səmanı,
göydə buludları, yerdə dumanı,
dənizdə dalğanı sən bağışladın,
bu hüsnü-mənanı sən bağışladın.

Uzanan yolların dümağ sətrini,
dünyanın ən gözəl çəmən ətrini,
qumlu sahillərdə sən bağışladın,
o zərif əllərdə sən bağışladın.

De, nədir səadət həyatda, gülüm,
bir könül xoşluğu, bir az təbəssüm.
Onu da, bunu da sən bağışladın,
dünyanı dünyada sən bağışladın.

1978

YOX DEYƏ-DEYƏ

Ramiz Mirişli bəstələmişdir

Gəldin görüşümə arabir yenə,
çıxmadın sözündən yox deyə-deyə.
Həyana getdinsə, yolun bir oldu,
getmədin gözümdən yox deyə-deyə.

Bəlkə məhəbbətin hökmü belədir,
incidin arabir, küsdün arabir.
Bildin ki, sədaqət ürəyimdədir,
qayıtdın yenə sən yox deyə-deyə.

De, niyə dolaşdı ağzında sözün,
özün tutduğuna mat qaldın özün?
Dolandı qolların boynuma bir gün,
öpdün də üzümdən yox deyə-deyə.

1963

KAŞ

Oktay Kazımov bəstələmişdir

Kaş yenə mən deyən illər olaydı,
mən oldum bir yana, illər bir yana.
Nə vaxt saçlarını daradı, yaydı
küləklər bir yana,
əllər bir yana?

Nə vaxt ürəyimi mən sənə açdım?
Əgər sən susursan, qoy illər desin.
Əvvəl vaxt tapanda yanına qaçdım,
sonra... səndən qaçdım, vaxtım itməsin.

Beləcə, yellərə verdim illəri,
aylara, illərə verdim illəri.
Mən vaxtı itirdim səndən ötəri,
mən səni itirdim vaxtdan ötəri.
İtirə-itirə pozuldu nəşəm,
özüm itirmişəm...
heç bilməmişəm.

Yaşım gör illərin harasındadı,
illər məhvərindən qoparır məni.
Ürəyim əvvəlki sevdasındadı,
dünya qayğılara aparır məni.

1970

BU DA BİR ZARAFAT

Rəşid Nəsibəyli bəstələmişdir

Eh, bir vaxt evləndik,
qaynadıq-qarışdıq,
küsüşdük, barışdıq,
sən demə, hamısı zarafat.

Dəyişdi səmtini
suların axarı,
yuxarı, aşağı,
aşağı, yuxarı.
Qarışdıq çəməndə
güllərin ətrinə.
Dəydik də arabir
sən mənim xətrimə,
mən sənin xətrinə,
küsülü yaşadıq bir evdə
üç saat, beş saat...
Axırı yenə də zarafat.
Bir evdə olmasa zarafat
dağılar o həyat,
uçular o həyat.
Qız oldu ilkimiz,
böyütdük ikimiz.
Özümüz böyüdük bir az da.
Beləcə dəyişdik
zarafat-zarafat,
sən ana, mən ata!
Sonra da oğlumuz, –
oğul da sonrakı arzumuz.
Yaşadıq gah ona,
gah buna muğayat.
Qalxdılar,
uzandı boyları maşallah,
bu da bir zarafat.
Saçlara xəlvəti dən düşdü,
Dağlara çən düşdü,
dağlardan bir duman endi də.
Tanınmaz olduq biz
tanına-tanına, –
beləcə dəyişdik indi də.
Gözəldi yaşamaq,
gözəldi bu həyat.
Hayıf ki,

hamısı xəbərsiz,
hamısı bir anlıq.
Eh səni hardasa
nənəlik gözləyir,
məni də babalıq.
Bu boyda zarafat?!

1973

AY YAŞIL SÖYÜD

Xəyyam Mirzəzadə bəstələmişdir

O, burdan gedəli
mən bura gəlmirəm.
Soruşma niyə bəs?
Bilmirəm, bilmirəm, ay yaşıl söyüd.

Gəlibmi, gedibmi
yanına o mənsiz?
Sən onsuz özgəsən,
yad olub o, sənsiz, ay yaşıl söyüd.

Yağışlar yağanda,
yığırdı ovcuna
o sənin saçını,
mən onun saçını, ay yaşıl söyüd.

Yanına qaçardı
gülüşə-gülüşə,
yıxıla-yıxıla,
sürüşə-sürüşə, ay yaşıl söyüd.

Küsülü gülüşü
düşürmü yadına?
Saçların tökülüb
ayaqlar altına, ay yaşıl söyüd.

Küləklər necə sərt
əsərmiş, ay aman!
Mənəmmi pərişan,
sənsənmi pərişan, ay yaşıl söyüd?

1973

MƏNİ BİR QIZ GÖZLƏYİR

Rüstəm Rüstəmzadə bəstələmişdir

Mən görüşə gedirəm,
Məni bir qız gözləyir.
Gün əyilir, yel əsir,
Yarpaq yarpağa dəyir.
Məni bir qız gözləyir.
Tələsirəm... bilmirəm,
Hey, niyə tələsirəm...
O qızın gülüşünü
görməyə tələsirəm...
Çənəsindən, üzündən
öpməyə tələsirəm.
Dəyişmərəm mən onu
dünyada heç bir qıza.
Gözü moruğa bənzər,
ətri təzə yarpıza.
Elə ki, axşam olur,
yarpaq yarpağa dəyir;
bir bağçada hər axşam
o qız məni gözləyir.
Mən görüşə gedirəm;
Balam məni gözləyir,
Qızım məni gözləyir.

1963

MİNNƏTDARAM MƏN

Ramiz Mustafayev bəstələmişdir

Yenə səsin gəldi qulaqlarıma,
həyata, dünyaya minnətdaram mən.
Sən orda pıçılda, eşidim səni,
özgəsi çağırsa, ona karam mən.

Sən açdın bir qəlbin məhəbbətini,
mən duydum bir ömrün səadətini.
Sənsiz hər sözünü, hər söhbətini,
sənsiz hər odanı xatırlaram mən.

Mənim bu aləmdə öz aləmim var,
sənlə sevincim var, sənsiz qəmim var.
Dünyadan qazancım bir qələmim var,
sənin xidmətində varam, varam mən.

1978

BƏXTƏVƏR OLDU

Nəriman Məmmədov bəstələmişdir

Aşkarda sevdim səni,
pünhan gəzdin hər dəfə.
Canım oduna yandı,
can demədin bir dəfə.

Yüz yol sizə buruldum,
yüz yol getdim izinlə.
Gözüm yolunda qaldı,
baxmadın bir gözünlə.

Adımız qoşa çıxdı,
hamıya xəbər oldu.
Özüm odlara yandım,
adım bəxtəvər oldu.

1960

SƏNSƏN HƏYATIM

Ələkbər Tağıyev bəstələmişdir

Ay sevgilim, çağır məni,
gəlim sizə qonaq olum.
Əsim səhər mehi kimi,
saçında daraq olum.

Sevgilim, küsmə gəl,
de, bir nədir günahım?
Ümidimi üzmə gəl,
təkcə sənsən pənahım.

Sevgilim, sevirəm,
sənsən qanadım mənim.
Sevgilim, sevirəm,
sənsən həyatım mənim.

Qələm olsam, varağım ol,
susuz olsam, bulağım ol.
Sən evim ol, otağım ol,
mən yanan çırağın olum.

Sevgilim, küsmə gəl,
de, bir nədir günahım?
Ümidimi üzmə gəl,
təkcə sənsən pənahım,
Sevgilim, sevirəm,
Sənsən qanadım mənim.
Sevgilim, sevirəm,
sənsən həyatım mənim.

1960

GÜL BİR AZ

Ələkbər Tağıyev bəstələmişdir

Mən bilirəm xatirinə dəyiblər,
unut, mənim xatirimə gəl bir az.
İşdə sənə nə deyiblər, deyiblər,
evə gəldin, danış bir az, gül bir az.

Bu dünyanın nadanı var nə qədər!
Ürəyində nə qəm olsun, nə kədər.
Torpaqdan da az tapılır incilər;
qızıl bir az, almaz bir az, ləl bir az.

Söz var, desən köçürülər, yazılar,
söz var yaxşı, söz var yaman yozular.
Ürəyimiz yaralanar, pozular
öz sözünü bilməyəndə dil bir az.

1978

ÖMRÜMÜN YAZISAN

Qənbər Hüseynli bəstələmişdir

Sən gözəl ömrümün baharı, yazısan,
bu sevən könlümün söhbəti, sazısan.

Qoy dönüm, dolanım başına yar, sənin!
düz əhdin, düz eşqin, düz sözün var sənin.

Gül, danış fərəhlə, qoy gülək, sevinək,
hər sözün, söhbətin əzizdir canımtək.

Bir hicran, bir ağrı görməsin qəlbimiz,
bu gözəl dövranda sevilək, sevək biz.

1955

LİRİK PARÇA

Sevda İbrahimova bəstələmişdir

Salsa kölgəsini yollara bulud,
yanından ötsə də, sən məni yad et.

Günəşi ağ bulud, ya qara bulud
bir anlıq örtsə də, sən məni yad et.

Qulağın qəfildən bir səsə düşsə,
o, mənim səsimdi, sən məni yad et.

Səhərin mehiylə alnın öpüşsə,
mənim nəfəsimdi, sən məni yad et.

Alışıb yanacaq üfüqdə könlüm,
o yolda, o izdə sən məni yad et.

Nə qədər səhər var, Günəş var, gülüm,
dünyada mənsiz də, sən məni yad et.

1962

NİYƏ GETDİN

Adil Bəbirov bəstələmişdir

Bir qara göz görəndə
gözünə bənzətmişəm.
Bir gülər üz görəndə,
üzünə bənzətmişəm.

Gözləməyib getdin sən,
darıxıb yandı könlüm.
Gəl, səni gözləyirəm,
de, niyə getdin, gülüm?

İndi vaxtında hər gün
mən keçirəm o yerdən.
Səni kimdən soruşum,
kimdən xəbər alım mən?

1960

YAŞATDIN ELLƏRİ

Şəfiqə Axundova bəstələmişdir

Yolunu gözlədim... xəbərin oğlum,
ləngidi yollarda, izlərdə qaldı.
Sənsiz buz bulaqlar göy meşələrdə,
ceyranlar, cüyürlər düzlərdə qaldı.

Getdin köməyinə elin, vətənin,
kəsdin qabağını dumanın, çənin.
Boy gördüm, boyuna bənzətdim sənin,
göz gördüm, gözlərim gözlərdə qaldı.

Yaşatdın ellərin hər öyüdünü,
anan halal edir sənə südünü,
Hər il yaşa dolur Qələbə günü,
adın söhbətlərdə, sözlərdə qaldı.

1978

ÜRƏKLƏR OXUSUN

Bəxtiyar Kərimov bəstələmişdir

Bahar yelləri əssin hər səhər,
yayılsın elə bizim nəğmələr.
Pıçıldaşın siz, şehli yarpaqlar,
sizin də öz diliniz var.

Sevinsin ürəklər,
çəməndə çiçəklər,
gül açsın arzular,
istəklər.

Qarışsın daim ürək-ürəyə,
külək mahnıya, mahnı küləyə,
arzu-arzuya, gülüş sevinc
qoy qarışsın dostlar, öncə.
Ay yağan yağışlar,
mehriban baxışlar,
bir gülüş min sevinc bağışlar.

Hər bulağın öz zümzüməsi var,
hər körpə quşun öz nəğməsi var.
Gəl ay körpə quş, gəl sərin bulaq,
nəğməmizi bir oxuyaq.
Bu ellər oxusun,
bülbüllər oxusun,
nəğməli ürəklər
oxusun...

1970

LAYLAY

İsmayıl Quliyev bəstələmişdir

Göy ulduz-ulduz,
göy də yuxusuz,
sən də yuxusuz, gül balam.
Mehdi, küləkdi,
ən xoş diləkdi, şirin laylam.
Yat, gülüm, yat,
bülbülüm, yat,
sünbülüm, yat.

Yatır dağ-meşə,
nərgiz, bənövşə,
qoşa yasəmən, buz bulaq.

Balaca quzum,
şəkərim, duzum,
yat, yuxusuzum, qalma oyaq.

1978

YAŞA DÜNYADA

Tahir Eminov bəstələmişdir

Yenə də gözlərim gözündə qalıb,
gördüyüm mənaya qurban olaram,
Əgər həqiqətsən, mən həqiqətə,
röyasan, röyaya qurban olaram.

Söhbətin şirindi, gülüşün təzə,
saldın ürəyimi eşqə, həvəsə.
Sən ayaq basdığın o yola, izə,
çəmənə, səhraya qurban olaram.

Çatsın hər muradın başa dünyada,
bir arzun dəyməsin daşa dünyada.
Bu dünya gözəldi, yaşa dünyada,
sən olan dünyaya qurban olaram.

1978

MƏNƏ ELƏ GƏLİR

Sevda İbrahimova bəstələmişdir

Mənə elə gəlir görüşəcəyik,
uzun sürməyəcək bu həsrət, bu qəm.
Sonra təəssüflə gülüşəcəyik,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, mənim çiçəyim,
gedər küsümüz də bir dəfə görsəm.
Genişdir, böyükdür sənin ürəyin,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, haraya getsən
gözündə, könlündə yalnız tək mənəm.
Sən məni unuda bilməyəcəksən,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, yaşamaq olmaz,
günəşsiz, havasız-bələdir aləm.
Həmdəmsiz çətindi... söz çox, ömür az,
sənə necə gəlir... onu bilmirəm.

1964

ANA

Mahir Tahiroğlu bəstələmişdir

Sən getdin, dəyişdi həyatın özü,
getdi dadı-tamı, hər şeyi getdi.
Evi bəzərdin ki, gözəl görünsün,
evimin ən gözəl bəzəyi getdi.

Mən sənsiz ölərəm demişdim, ana,
hamısı yalanmış, yaşadım, ana.

Nəqərat: Səni daşa dəyişdim,
torpağa dəyişdim,
dəyişdin, məzara döndün.
Səni qışa dəyişdim,
bahara dəyişdim,
dəyişdin, məzara döndün.

Mən sənsiz ölərəm demişdim, ana,
hamısı yalanmış, yaşadım, ana.

Gözüm yolda qalıb, qulağım səsdə,
gedibsən, qalmışam mən qonaq kimi.
Sən yerin altında, mən yerin üstə,
biz ayrı düşmüşük kök-budaq kimi.

Nəqərat: Səni daşa dəyişdim,
torpağa dəyişdim,
dəyişdin, məzara döndün.
Səni qışa dəyişdim,
bahara dəyişdim,
dəyişdin, məzara döndün.

Mən sənsiz ölərəm demişdim, ana,
hamısı yalanmış.
Bağışla.

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz 4

DURNALAR VURULUR QAQQILDAŞANDA

Bütün millətlərə Beynəlxalq məhkəməyə 9
Mən ki, Tanrı şairiyəm 10
Arxada uçurum, qabaqda zaman 12
Qalx 13
Dilənənlər 15
Ağrı 16
"Kimin sualı var?" – yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər 18
Mənsiz yaşa 19
Xəbərsiz 21
Zəriflik 22
Əsa götürmə 23
Tərcümeyi-hal 24
Boş səbətlər 24
Yasin 25
Gəncə üsyanı 26
Əgər 27
Tələsməyin 28
Söyüd 28
Əzizim 29
Hələ and içir 31
Tehranda Azərbaycan səfirliyi, üçrəngli bayrağımız 31
Elə durma 32
Zirvə 33
Ankarada Məhəmməd Əmin Rəsulzadənin məzarı 34
Qız qalası 36
Cəbhə bayatıları 37
İtkin düşənlərin yeri bilinmir 39
Şəhidlər xiyabanı 40
Qanlı kitab 41
Ekran önündə 43
Kür axır 43
Hasar 44

Öldürürlər yaxşıları ... 45
Gülə-gülə ... 45
Daş ürəklər gördüm, ölü baxışlar ... 46
Əcəl gəlincə sən gəldin ... 46
Dəvə, susma ... 47
Daş vaxtı deyil ... 48
Yoxdu əvəzin, ey könül ... 48
Məscidden kilsəyə gedir ... 49
Safruha ... 49
Şair ... 50
Sən də xiffət eyləmisən ... 51
Baxt qapın ağzında ayaq üstədi ... 52
Ala pişik ... 52
Baxta-baxtdı ... 53
Subardinasiya ... 53
Heyrət ... 54
...Yaş keçir, həkim ... 54
"Dilənçi" ... 54
Dünyanın heç kəsi yoxdu. ... 55
Sənə qul deyəni qul kimi öldür ... 56
Yerin var Şəhidlər xiyabanında ... 57
Burjua şairi ... 58
Öldü deməyin ona ... 59
Yanımda bir qadın ... 61
Məhəbbət ... 62
Oyan, şair! ... 62
Baş eylər ... 63
Dayım oğlu Bayram Məsmalıya ... 63
Xəlilin göz yaşı ... 64
Hay-küy ... 65
Dünyanın üzü toy, astarı yasdı ... 65
Mən bir ömür sürdüm ... 67
Qaratoyuq ... 68
Ayrılıq ayrılıqdı ... 69
Şeyxim ... 70
Millət öz-özünə güldü nəhayət ... 71
Yavaş de, qızım ... 71
Fəlsəfənin riyaziyyatı ... 72
Bir qəbir nəğməsən, dərdiş ... 73
Camal Mustafayev ... 74
Hamlet İsaxanlı ... 74

Bakıda "Yaşıl bağ" xəstəxanası və onun hasarı ... 74
Lalə Rasim qızına ... 75
İstiqlal laylası ... 76
Kitabxanaçı ... 78
Mir Cəlal heyy ... 80
Ürəyim ... 80
Çadralı qızlar ... 81
Səs ver Bakıya, Təbriz ... 82
Şairlər ağlayacaq ... 84
Mənim taleyimi yazan ayrıdı ... 85
Çoban Əfqan ... 86
Deyirlər "Dəyişmişəm" ... 87
Dünyada tərifli bir gün olmadı ... 88
Demir hanı Nərimanım ... 90
Sən köçdün dünyadan ... 90
"Təzə" xalq gəlir ... 91
Hacının qızı ... 92
Var ... 93
Aspirant dostum Abdulla Abbasovun qızına ... 94
Qurban Pirimovun xatirəsi ... 95
Nə qədər desək də sənsən arxamız ... 95
Məni bayraq kimi tutun yuxarı ... 96
Girov ... 96
Pənahi Makulunun dəfnində ... 97
Hazır ol ... 98
Heyrət ... 98
Qiymət ... 99
Niyə demədiniz ... 99
Məhəbbət ... 100
Səliqə-sahman ... 101
Lakin ... 101
Oğluma cavab ... 103
Ata sərvəti ... 103
Yaşamaq öyrədir təbiət bizə ... 104
Çılpaq kral ... 105
Sevin ... 105
Mənə oxşasan ... 106
Payız ... 107
Nigaranam ... 108
Belə deyirmi həyat ... 109
Yazıq fil ... 110

Aqava ... 110
Heyif ... 111
Ən şirin nemət ... 111
Müşfiqin oğlu ... 112
Yanaşı getməyimiz elə soadət imiş ... 113
Bakı ... 114
Cəngi ... 116
Dəymə ... 117
Görəsən ... 118
Qamçı vurur ... 118
Ehtiyat ... 119
Mən elə torpağam ... 119
Məhəbbət qədər ... 120
Qalan qapılardı ... 122
Mənim tarixim ... 122
Vətəndən soruş ... 123
Üroyim ... 124
Adsız bulaq ... 124
Xaricilər ... 125
Nikolay ... 126
Vaxt gəlir ... 127
"Qələm yoldaşıma" ... 127
Sınma ... 128
Fələstin nəğmələri ... 129
Möcüzə ... 130
Mən orda şeir dedim ... 131
Tacmahal ... 133
Aynur ... 134
Adət edənə kimi ... 134
Adət ... 135
Səs-səsə ... 136

"Nazim Hikmət" silsiləsindən
1. Sabah gələsiydi ... 137
2. Mən bilsəydim ... 138

Azəroğlu ... 140
Sən də ... 141
Böyük Periklin on ağır cəzası ... 141
Yaşa ... 142
Adət nədir ... 143

Həyat ... 144
Ehtiyacı var ... 144
Oxucuma ... 145
Azərbaycan ... 145
Əbədiyyət ... 146
Ağlağan ... 149
Dərddi ki, dərdlinin yoxdu yiyəsi ... 149
Şairlər tabutda böyük görünür ... 150
"İran şahı"na məktub ... 152
Cavidin ... 153
Aşıq Ədalətə ... 154
Şair taleyindən yarıya bilmir ... 155
...Ya iki ... 156
Alman əsgərinə ... 156
Vaxt ... 158
Bir az möhlət istəyirəm ömürdən ... 158
Durnalar vurulur qaqqıldaşanda ... 159
Ay haray ... 160
Getdi ... 162
Mir Cəlal misal çəkərdi ... 163
Qaçdıq qara saçdan ağ saça qədər ... 163
29 güllənin yiyəsi ... 165

YAŞA, HAYIFSAN

İsmət ... 169
Üroyim anamı istəyir, qızım ... 169
Yaşa, hayıfsan ... 170
Mən ... 171
Mənə düşməyir ... 171
Qayıt ... 172
İşığa can atsam ... 173
Yoxdu ... 174
Söz yarası ... 175
Ağlama ... 177
Torpaq oldu ... 177
Ayrılıq ... 178
Görüş yeri ... 180
Torpağa büründü, kürk əvəzinə ... 181
Zülmətdə işıq ... 182
Bəxt ... 183